**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№346/9** **28 iyul 2022-ci il**

**Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Belarus Respublikası Auditorlar Palatası arasında əməkdaşlıq sazişin imzalanması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 6.7-ci "Xarici ölkələrin audit və mühasibat qurumları ilə əlaqələrin genişləndirilməsi" bəndinə uyğun olaraq Azərbaycan Respublikası Auditorlar Palatası ilə Belarus Respublikası Auditorlar Palatası arasında əldə edilmiş razılığa əsasən təcrübə mübadiləsi və əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Auditorlar Palatası sədrinin müşaviri, Palatanın Şurası yanında Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitənin sədri F.Qarayev tərəfindən təqdim edilmiş əməkdaşlıq sazişinin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Belarus Respublikası Auditorlar Palatası arasında imzalanacaq əməkdaşlıq sazişinin layihəsi bəyənilsin (əlavə olunur).

2. Təsdiq edilmiş əməkdaşlıq sazişinin 2022-ci il 16 sentyabr tarixində Bakıda imzalanması məqsədəmüvafiq hesab edilsin.

3. Auditorlar Palatası sədrinin müşaviri, Palatanın Şurası yanında Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitənin sədri F.Qarayevə tapşırılsın ki:

3.1. bir həftə müddətində əməkdaşlıq sazişinin mətninin azərbaycan dilinə tərcümə edilməsini təmin etsin;

3.2. əməkdaşlıq sazişinin imzalanması ilə əlaqədar təşkilati işləri həyata keçirsin;

3.3. əməkdaşlıq sazişinin mətninin razılaşdırılması məqsədilə Belarus Respublikası Auditorlar Palatasına göndərilməsini təmin etsin.

3.4. Bu qərarın və əməkdaşlıq sazişinin mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**Şuranın sədri** **Vahid Novuzov**